# Fundamental yubiley nəşri





**Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyi, Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi kimi ərsəyə gəlmiş layihənin – ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunmuş "Azərbaycan memarlıq elementləri" fundamental nəşrinin təqdimatı olub.**

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov giriş sözündə XX əsrin ortalarında görkəmli Azərbaycan memarı, akademik Mikayıl Hüseynov tərəfindən ilk dəfə olaraq milli memarlıq abidələrinin araşdırıldığını, bu təşəbbüslə həmin dövrdə tədqiqatçılar tərəfindən müxtəlif abidələrə aid materialların toplandığını və məhdud nüsxədə bir neçə albomun çap olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, yarımçıq qalmış həmin işə yarım əsr sonra yenidən başlanılıb, nəticədə sanballı bir kitab ortaya qoyulub.

Mərasimdə bildirilib ki, Əməkdar memar, memarlıq üzrə fəlsəfə doktoru Xəlil Cəfərovun hnəşrə hazırladığıkitab-albom Azərbaycanın qədim tarixə malik olan memarlıq abidələrinin üzərində hələ minilliklər öncə əcdadlarımızın nəqş etdiyi milli memarlıq elementlərindən və onların etimologiyasından bəhs edir. Nəfis tərtibatlı, elmi məlumatların illüstrativ materiallarla müşayiət olunduğu yubiley nəşrində XX əsrdə Azərbaycan memarlığının inkişafından da ətraflı söz açılır, memarlıq və arxitektura sahəsinin ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə xüsusilə diqqət mərkəzində olduğu vurğulanır.

Kitabın elmi redaktoru, Əməkdar memar, professor, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə nəşri milli memarlıq üslubunun yaddaşlara həkk olunması üçün ən gözəl vasitə adlandırıb. O, ulu öndər Heydər Əliyevin Azərbaycan memarlıq irsinin qorunması və zənginləşdirilməsi sahəsində müstəsna xidmətlərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli təqdim olunan kitabda milli memarlıq üslubu, memarlıq janrları, interyer tərtibatı nümunələri, kiçik memarlıq formalarının ətraflı izah edildiyini söyləyib. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, Milli Məclisin üzvü, akademik Nizami Cəfərov, Xalq yazıçısı Çingiz Abdullayev kitabla bağlı fikirlərini bölüşüblər.

Kitabın müəllifi, Əməkdar memar Xəlil Cəfərov bu nadir albomun ulu öndərin anadan olmasının 100 illiyinə layiqli töhfə olduğunu söyləyərək bildirib ki, kitabda Azərbaycan memarlığında işlənən milli elementləri həm funksional cəhətləri ilə, həm də bədii-estetik təsiri ilə tikililərdə sadəcə mühəndislik təxəyülünün məhsulu kimi deyil, eyni zamanda incəsənət nümunəsi kimi nəzərdən keçirilib.

Təqdimat mərasimində müasir memarlıq əsərlərində xalqımızın əsrlər boyu yaratdığı memarlıq irsini yaşatmaq və eyni zamanda bugünkü tələblərə uyğun şəkildə, düzgün istifadə etmək baxımından milli memarlıq elementlərini dərindən bilməyin vacibliyi qeyd edilib və yeni albom bu baxımdan qiymətli mənbə kimi dəyərləndirilib.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 10 iyun.- S.5.